# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU

Bakı şəhəri 18 noyabr 2013-cü il

## Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2013-cü il üçün əsas müsabiqəsi (EİF-2013-9(15)) haqqında

## E L A N

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu (bundan sonra - Elmin İnkişafı Fondu) Azərbaycan Respublikasında təbiət, dəqiq, texniki, humanitar və ictimai elmlər sahəsində dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən fundamental, tətbiqi və axtarış-innovasiya xarakterli elmi-tədqiqat proqram və layihələrini və digər elmi tədbirləri (bundan sonra - layihələr) dəstəkləmək, aktual və müasir elmi problemlərin həlli ilə məşğul olan fiziki şəxslərin, bir elmi mövzu (problem) ətrafında müvəqqəti yaradılmış yaradıcı kollektivlərin, akademik və təhsil sistemlərində fəaliyyət göstərən elmi və digər qurumların (dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının və s.) elmi fəaliyyətini stimullaşdırmaq və onlara əlavə yaradıcılıq imkanı yaratmaq məqsədilə Elmin İnkişafı Fondunun elmi prioritetlərinə uyğun olaraq, qrantların verilməsi üzrə 2013-cü il üçün əsas müsabiqəsini (EİF-2013- 9(15))

ELAN EDİR:

1. Elmi-tədqiqat müəssisələrinin, bölmə və mərkəzlərinin və digər qurumların elmi fəaliyyətini və maddi-texniki təminatını təkmilləşdirmək, elmin ayrıca götürülmüş sahə və istiqamətlərinin davamlı inkişafını dəstəkləmək, həmçinin qısa müddət ərzində modern elmi cihaz, avadanlıq və qurğularla təchiz olunma yolu ilə əhəmiyyətli elmi nəticələr alınmasını stimullaşdırmaq və kadr hazırlığını təmin etmək məqsədi ilə ***qurum(lar)*** **tərəfindən təqdim edilmiş** ***pilot layihələrin*** **böyük maliyyə həcmli qrantlar (100 000 - 500 000 manat) və meqa qrantlar (500 000 manatdan yuxarı) verilməsi yolu ilə maliyyələşdirilməsi.**

Cari müsabiqə çərçivəsində AMEA-nın Naxçıvan və Gəncə Bölmələrinin, regional elmi mərkəzlərinin, həmçinin elmi tədqiqatlarla məşğul olan müxtəlif qurumlarda coğrafiya və Xəzər problemləri, farmokologiya üzrə tədqiqatların, Azərbaycan elmi informasiya resurslarının (virtual Azərbaycan) rəqəmsallaşdırılmasının və istismarının və digər prioritet araşdırmaların pilot layihələr vasitəsilə dəstəklənməsi nəzərdə tutulur.

Pilot layihələrin ümumi maliyyələşdirilmə həcmi: **4 500 000 manat.**

Bu tip layihələrin qrantlar yolu ilə maliyyələşdirilməsində əsas məqsəd sadalanan elm sahələrində yerinə yetirilən elmi-tədqiqat işlərinin ***maddi-texniki təminatının*** müasir tələblərə cavab verən səviyyədə yenilənməsinin dəstəklənməsidir. Pilot layihələrdə maddi-texniki təminatla (cihazlar, qurğular və avadanlıqlar) yanaşı paralel olaraq ***kadr hazırlığı*** da nəzərdə tutulur.

Ünvanlı xarakter daşıyan bu müsabiqədə elmi fəaliyyətlə məşğul olan akademiya və təhsil sistemindəki və digər qurumlar (elmi-tədqiqat bölmələri və institutları, təşkilatları, müəssisələri və b.) iştirak edə bilərlər. Müsabiqəyə təqdim edilən layihə həmin layihə üzrə rəhbərlə təmsil olunmalı və **qurumun tabe olduğuyuxarı orqanın rəsmi təqdimatı olmalıdır** (Azərbaycan Milli Elmlər Akademiyası təşkilatları üçün isə ən azı uyğun elm sahəsi üzrə müvafiq Bölmənin təqdimatı tələb olunur). Təqdimat formal olaraq yazılmamalı və təqdim olunan layihənin elmi-təcrübi əhəmiyyəti, gözlənilən nəticələri və elmin inkişafına verə biləcəyi töhfələr qısa, lakin dolğun şəkildə açıqlanmalıdır.

2. Fizika-riyaziyyat və texnika elmləri, Yer haqqında elmlər, kimya elmləri, biologiya, tibb və aqrar elmləri və humanitar və ictimai elmlər sahələrini əhatə edən **fundamental-tətbiqi xarakterli layihələrin *kiçik (10 000 manatadək) və orta (10 000 – 100 000 manat) maliyyə həcmli qrantlar* vasitəsilə maliyyələşdirilməsi.**

3. **Xüsusi layihələr üzrə kiçik (10 000 manatadək) və orta (10 000 – 100 000 manat) maliyyə həcmli qrantların verilməsi:**

- elmi-tədqiqatların müasir tələblərə cavab verən orta həcmli maddi-texniki təminatı (cihazlar, qurğular, avadanlıqlar, məmulatlar və s.);
- ölkənin sosial-mənəvi, elmi-texniki və iqtisadi inkişafı üçün xüsusi əhəmiyyət kəsb edən Respublika, regional və beynəlxalq səviyyəli konfrans, simpozium, seminar və başqa elmi tədbirlərin Azərbaycan Respublikasında təşkili və keçirilməsi;
- Azərbaycanda elmin inkişaf üçün mühüm əhəmiyyət kəsb edən elmi əsərlərin (monoqrafiya, atlasların, sifarişli əsasda yazılmış elmi və analitik icmalların və b.) nəşrinin dəstəklənməsi.

Fundamental-tətbiqi xarakterli və **x**üsusi layihələrin ümumi maliyyələşdirilmə həcmi: **1 300 000 manat**

**Bu müsabiqə çərçivəsində qrant maliyyələşdirilməsinin cəmi həcmi: 5 800 000 manat**

**Müsabiqənin əsas prioritetləri aşağıdakılardır:**

- Yüksək texnologiyalar və yüksək xassəli materiallar;
- Fizikanın fundamental problemləri, riyaziyyat, informasiya-kommunikasiya sistemləri və texnologiyaları, elektron elmi-informasiya resurslarının yaradılması, Azərbaycanın virtual mədəni irsinin yaradılması;
- Alternativ və bərpa olunan enerji mənbələri;
- Geoelmlər və hidrologiya, coğrafiya üzrə tədqiqatlar;
- Ətraf mühit və ekoloji təhlükəsizlik, təhlükəsizlik və risk faktorları;
- Təbii ehtiyatların səmərəli istifadəsi və kompleks emalı, ərzaq təhlükəsizliyi;
- Yeni kimyəvi və yüksək molekullu birləşmələr;
- Biomüxtəlifliyin qorunması, hidrobiologiya və akvakultura;
- Tibbin müasir problemləri, farmakologiya;
- Multikulturalizm, sivilizasiyalararası dialoq, humanitar əməkdaşlığın aspektləri;
- Tarixin fəlsəfəsi;
- Muğam tədqiqatları, muğam tarixi;
- Azərbaycanla bağlı artefakt və əlyazmalar;
- Folklor tədqiqatları;
- İqtisadi inkişafın humanitar və sosial aspektləri;
- Elmi innovasiyalar və dayanıqlı inkişaf.

Müsabiqədə iştirak etmək üçün ərizələr, ərizəyə əlavə olunan müvafiq sənədlər və digər müşayiətedici materiallar **2013-cü il 19 noyabr** tarixindən başlayaraq qəbul olunur.

Müsabiqədə iştirak etmək üçün ərizələrin, ərizəyə əlavə olunan müvafiq sənədlərin və digər müşayiətedici materialların qəbulu üçün son tarix **2013-cü il 27 dekabr** saat 17:00-dır.

Elmin İnkişafı Fondu tərəfindən qrantların verilməsi üzrə 2013-cü il üçün əsas müsabiqəsinin (EİF-2013-9(15)) nəticələri 2014-cü ilin birinci rübündə açıqlanacaqdır.

Müsabiqədə qurumlar və elmi yaradıcı kollektivlər (alim və mütəxəssislərin iştirakı ilə müvəqqəti olaraq təşkil olunmuş), həmçinin fərdi şəkildə alim və mütəxəssislər iştirak edə bilərlər.

Bütün hallarda müsabiqəyə təqdim edilən layihə həmin layihə üzrə rəhbərlə təmsil olunmalıdır.

Qrantların verilməsi üzrə müsabiqənin keçirilmə prinsipləri, müsabiqədə iştirak etmək üçün ərizələr, ərizəyə əlavə olunan müvafiq sənədlər və digər müşayiətedici materialların verilməsi və qeydiyyatı qaydaları, layihələrin ekspertizasının ümumi qaydaları, layihələrin həyata keçirilməsi şərtləri, müsabiqələrin xüsusiyyətləri də daxil olmaqla qrantların verilməsi üzrə müsabiqənin keçirilməsi qaydaları ilə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun 25 iyun 2010-cu il tarixli Q-1 nömrəli Qərarı ilə təsdiq edilmiş “Elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə müsabiqələrinin keçirilməsi Qaydaları”nda (http://sdf.gov.az) tanış olmaq olar.

Müsabiqədə iştirak etmək istəyən şəxslərə “Elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə

müsabiqələrinin keçirilməsi Qaydaları" ilə tam tanış olduqdan sonra müvafiq ərizə və sənədləri tərtib etmələri tövsiyə olunur.

Qrantların verilməsi üzrə müsabiqədə iştirak etmək üçün ərizə və müvafiq sənədlər (Microsoft Word formatında) Elmin İnkişafı Fondunun internet saytının (http://sdf.gov.az) "Qrant müsabiqələri" bölməsindən əldə edilə bilər.

Bütün layihələr, bir qayda olaraq, **Azərbaycan** (2 nüsxə) və **ingilis** (1 nüsxə) (xarici ekspertlərdən rəy alınması üçün) dillərində tərtib edilməlidir. Kiçik həcmli qrantlar üzrə (10 000 manatadək büdcəsi olan layihələr) ərizə və sənədlər Azərbaycan-ingilis və ya Azərbaycan-rus dillərində doldurula bilər. Müşayiətedici materiallar (məqalələrin, diplomların və digər sənədlərin surətləri, zəmanət məktubları və b.) isə 1 nüsxədə təqdim olunur.

Layihələr üç formatda (kağız üzərində, elektron məlumatdaşıyıcılarına yazılmış şəkildə və elektron variantın elektron ünvana göndərilə bilməsi üçün elektron fayllar şəklində) aşağıdakı üsullarla təqdim olunmalıdır:

1. Müsabiqədə iştirak etmək üçün layihə rəhbəri tərəfindən imzalanmış ərizənin, ərizəyə əlavə olunan sənədlərin və digər müşayiətedici materialların A4 formatlı ağ kağızda çap olunmuş variantını (Azərbaycan dilində 2 nüsxə, ingilis və ya rus dillərində 1 nüsxə) və elektron məlumatdaşıyıcılarına (CD, DVD və s.) yazılmış versiyasını birlikdə:

- Elmin İnkişafı Fondunun icraçı direksiyasının ünvanına **(AZ-1069, Bakı şəhəri, Atatürk prospekti, 48B)** (sifarişli üsulla) poçt vasitəsilə göndərmək yolu ilə:
- və ya Elmin İnkişafı Fondunun icraçı direksiyasının yuxarıda göstərilən ünvanda yerləşən **inzibati binasına** həftənin iş günlərində (bazar ertəsi – cümə) saat 10:00-dan 17:00-dək birbaşa çatdırmaqla və qeydiyyatdan keçirmək yolu ilə (elektron-poçt göndərişi zamanı mümkün itmələrdən və adi poçt daşınması zamanı təsadüfi mexaniki zədələrdən yayınmaq üçün);

2. Müsabiqədə iştirak etmək üçün ərizənin, ərizəyə əlavə olunan sənədlərin və digər müşayiətedici materialların elektron variantını (Microsoft Word formatında elektron fayllarını) Elmin İnkişafı Fondunun **elektron-poçt ünvanına** (qrant@elmfondu.az) göndərmək yolu ilə (bu zaman elektron məktubun "mövzu" ("subject") hissəsində aşağıdakı yazılışdan istifadə olunmalıdır: "EİF-2013-9(15) - *Layihə rəhbərinin soyadı və adı - Elm sahəsinin adı*").

**Elektron variantı təqdim olunmadığı halda, həmçinin Microsoft Word formatında olan Formalara özbaşına düzəlişlər edildikdə layihə birmənalı olaraq texniki ekspertiza mərhələsindən keçmir.**

Ərizənin, ərizəyə əlavə olunan sənədlərin və digər müşayiətedici materialların elektron variantının kağızda olan variantına tam uyğun olmasına məsuliyyəti layihə rəhbəri daşıyır.

**Müsabiqənin keçirilməsi qaydaları və müddəti çərçivəsindən kənar təqdim olunan layihələr müsabiqənin texniki ekspertiza mərhələsindən qəti olaraq keçmir və elmi ekspertiza mərhələsinə buraxılmır. Müsabiqəyə təqdim edilmiş sənədlər geri qaytarılmır.** Müsabiqədə iştirak məqsədilə, o cümlədən layihələrin ekspertizası mərhələlərində saxta sənəd, imza və məlumatların təqdim olunması layihənin elmi ekspertizadan

kənarlaşdırılmasına səbəb olur.

Elmin İnkişafı Fondu eyni zamanda, şəffaflığı və bərabərliyi təmin etmək məqsədilə təqdim olunmuş və texniki ekspertizadan keçmiş bütün layihələrin müvafiq qaydada açıqlana biləcək hissəsinin internet səhifəsi vasitəsilə forum xarakterli ictimai-elmi müzakirəsini və ekspert rəylərinin müvafiq hissəsinin internet səhifədə yerləşdirilməsi işini də təşkil edə bilər. Bu tipli müzakirə təqdim olunmuş layihə texniki ekspertizadan keçdikdən sonra başlana və elmi ekspertiza bitənədək olan müddət ərzində həyata keçirilə bilər.

Müsabiqəyə təqdim edilmiş bütün layihələrin ideyasının obyektiv formada orijinal ifadəsi müəlliflik hüququnun obyekti kimi Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyində qeydiyyatdan keçiriləcəkdir.

Müsabiqədə iştirak etmək üçün ərizələrin və ərizəyə əlavə edilən müvafiq sənədlərin, Müsabiqələrin keçirilməsi Qaydalarının əldə olunması ilə bağlı problemlər yarandığı təqdirdə Elmin İnkişafı Fondunun icraçı direksiyası (Bakı şəhəri, Nərimanov rayonu, Atatürk prospekti, 48B) ilə birbaşa əlaqə saxlanılması tövsiyə olunur. Əlaqə telefonu: 563-61-11, elektron poçt ünvanı: qrant@elmfondu.az

Sualların elektron poçt ünvanına göndərilməsi təqdir olunur. Digər tərəfdən, sənədlərin qəbulu üçün nəzərdə tutulmuş müddət ərzində qrant iddiaçılarına kömək və sualların cavablandırılması məqsədilə məsləhət seminarlarının keçirilməsi nəzərdə tutulmuşdur.

***Elmin İnkişafı Fondunun icraçı direksiyası***